azərbaycan
TURİZM BÜROSU

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ**
**"AZƏRBAYCAN TURİZM BÜROSU" PUBLİK HÜQUQİ ŞƏXSİ**

# ƏMR

**20 may 2026-cı il** **3-46-1/3-1-233/2026**

**"Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin**
**Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı**

## Uyğunluğun qiymətləndirilməsi üzrə sertifikatlaşdırma xidmətinin qiymətinin tənzimlənməsi barədə

Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanı tərəfindən həyata keçirilən uyğunluğun qiymətləndirilməsi üzrə sertifikatlaşdırma xidmətinin qiymətinin tənzimlənməsi və mehmanxanaların fəaliyyətinə dəstək mexanizmi çərçivəsində Bakı, Abşeron və Sumqayıt şəhərləri ərazisində yerləşən mehmanxanalara münasibətdə "Azərbaycan Turizm Bürosu" publik hüquqi şəxsin Mehmanxanaların ulduz kateqoriyaları üzrə sertifikatlaşdırma orqanının Əsasnaməsinin 7.4.1-ci və 7.4.2-ci yarımbəndlərini rəhbər tutaraq **əmr edirəm**:

1. 2023-2026-cı illərdə ulduz kateqoriyası üzrə sertifikatlaşdırılmış və Bakı, Abşeron və Sumqayıt şəhərləri ərazisində fəaliyyət göstərən mehmanxanalar üçün müəyyən edilmiş xidmət haqqının ödənilməsi aşağıdakı qaydada tənzimlənsin və müvafiq müqavilələr üzrə nəzərə alınsın:

1.1 2023-cü ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən sertifikatlaşdırma xidməti üzrə 1-ci və 2-ci ilin sertifikat tariflərinin ödənildiyi təqdirdə həmin mehmanxanalara sertifikatlaşdırma xidməti üzrə 3-cü ilin sertifikat tarifi tətbiq edilməsin.

1.2. 2023-cü ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən sertifikatlaşdırma xidməti üzrə 3 illik ödənişin təmin edildiyi təqdirdə həmin mehmanxanalara yenidən sertifikatlaşdırma xidməti üzrə 1-ci ilin sertifikat tarifi tətbiq edilməsin.

1.3. 2024-cü ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən 2-ci ilin sertifikat tarifi üzrə ödəniş edildiyi təqdirdə həmin mehmanxanalara 3-cü ilin sertifikat tarifi tətbiq edilməsin.

1.4. 2025-ci ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən 1-ci ilin sertifikat tarifi üzrə ödəniş edildiyi təqdirdə həmin mehmanxanalara 2-ci ilin sertifikat tarifi tətbiq edilməsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ "AZƏRBAYCAN TURİZM BÜROSU" PUBLİK HÜQUQİ ŞƏXSİ
İmzalayan şəxs: Florian Zenqstşmid / Rəhbərlik / İdarə Heyətinin sədri

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/XvHbYdbe80ZG24Hv7REeOICZUnBkmEZIf65F%2Fnv40pg%3D

1.5. 2025-ci ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən 1-ci və 2-ci ilin sertifikat tarifi üzrə ödəniş edildiyi təqdirdə həmin mehmanxanalara 3-cü ilin sertifikat tarifi tətbiq edilməsin.

1.6. 2026-cı ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən 1-ci ilin sertifikat tarifi üzrə ödəniş edildiyi təqdirdə həmin mehmanxanalara 2-ci ilin sertifikat tarifi tətbiq edilməsin.

1.7. 2026-cı ildə sertifikatlaşdırılmış mehmanxanalar tərəfindən ilkin ödəniş tarifi üzrə ödəniş edildiyi təqdirdə həmin mehmanxanalara 1-ci ilin sertifikat tarifi tətbiq edilməsin və ilkin ödəniş tarifi üzrə ödənilmiş məbləğ 2-ci ilin sertifikat tarifindən çıxılsın.

1.8. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin mehmanxanalara dəstək mexanizminin tətbiqi məqsədilə 2026-cı ildə sertifikatlaşdırılan mehmanxanalara sertifikatlaşdırma xidmətlərinin ilkin ödəniş tarifi və 1-ci il üzrə sertifikat tarifi tətbiq edilməsin.”

2. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Sertifikatlaşdırma orqanının rəhbəri** **Florian Zenqstşmid**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ “AZƏRBAYCAN TURİZM BÜROSU” PUBLİK HÜQUQİ ŞƏXSİ
İmzalayan şəxs: Florian Zenqstşmid / Rəhbərlik / İdarə Heyətinin sədri

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.sesda.az/info/esign/XvHbYdbe80ZG24Hv7REeOICZUnBkmEZIf65F%2Fnv40pg%3D